*Suraxanı rayonu*

# Görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümü geniş qeyd edilir

Suraxanı rayonunda görkəmli oftalmoloq alim, ictimai xadim, Əməkdar elm xadimi, AMEA-nın ilk qadın həqiqi üzvlərindən biri, tibb elmləri doktoru, professor Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümünə həsr olunmuş silsilə tədbirlər keçirilir. Növbəti tədbir Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Suraxanı rayonu Heydər Əliyev Mərkəzində keçirilmişdir.



Tədbir iştirakçıları əvvəlcə, ulu öndərin Heydər Əliyev parkında ucalan abidəsini ziyarət etmiş, önünə tər güllər düzmüşlər. Sonra Heydər Əliyev Mərkəzində görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümü münasibəti ilə yaradılmış guşədə qoyulmuş büstü önünə tər güllər düzmüş, foto, kitab sərgisinə baxmışlar.

Tədbir Mərkəzin elektron lektoriya zalında davam etdirilmişdir. Tədbir iştirakçıları bir dəqiqəlik sükutla akademik Zərifə xanım Əliyevanın əziz xatirəsini yad etmiş, Zərifə xanım Əliyeva haqqında filmə baxmışlar.

Tədbiri **Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov** giriş sözü ilə açaraq qeyd etmişdir ki, görkəmli elm xadimi, dünya şöhrətli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümü ölkəmizdə geniş qeyd edilir, əziz xatirəsi sonsuz məhəbbətlə anılır, yad edilir. XX əsrin ikinci yarısında tibb elminə böyük töhfələr vermiş görkəmli alimlər sırasında Zərifə xanım Əliyevanın özünəməxsus yeri var.

Zərifə xanıma irsən bir xüsusiyyət də keçmişdi. Təşkilatçılıq bacarığı, ictimaiyyətlə dil tapıb işləmək istəyi vardı. Ona görə həmişə ictimai işlərdə çalışmışdı. SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini olmuşdu. "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və SSRİ Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü kimi fəaliyyət göstərmişdi. Zərifə xanım Əliyeva müxtəlif illərdə bir sıra ordenlərə və medallara layiq görülmüşdü. Azərbaycanın əməkdar elm xadimi fəxri adını almışdı.

Zərifə xanımın zəngin elmi fəaliyyəti, qazandığı uğurlar barədə danışan YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, 12 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının baş həkimi Bəhlul Məmmədov, 24 saylı Şəhər Poliklinikasının göz həkimi Rəna Qanbay, RİHB-nin Zığ inzibati ərazi dairəsi üzrə nümayəndəsi Cəlaləddin Əhmədov, 16 saylı Uşaq Poliklinikasının həkimi Aynurə Ələsgərova və başqaları akademik Zərifə Əliyevanın oftalmologiya elminin inkişafı istiqamətində apardığı tədqiqat işlərinin əhəmiyyətini xüsusi vurğulamışlar.

Tədbirdə səslənən fikirləri ümumiləşdirən Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov qeyd etmişdir ki, akademik Zərifə xanım Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Onun elmi fəaliyyəti çox zəngin və əhatəli olmuşdur.

İlqar Abbasov qeyd etmişdir ki, Suraxanı Rayon İcra Hakimiyyətinin nümayəndə heyəti hələ 21-26 aprel 2008-ci il tarixdə Estoniya Respublikasının paytaxtı Tallinn şəhərində işgüzar səfərdə olarkən Tallinn şəhərində fəaliyyət göstərən uşaq bağçalarından birinə Suraxanı Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın adı verilmiş və burada oftalmoloq alimin büstünün açılışı olmuşdur.

Rayon rəhbəri xüsusi vurğulamışdır ki, Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Zərifə xanım Əliyeva ulu öndərimizə mənəvi dayaq, arxa olub. Zərifə xanımın fəxri adları, elmi titulları, mükafatları çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Ancaq bu adlar sırasında ən şərəflisi Ana adıdır. Zərifə xanım ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin anasıdır.

Sonra Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov qeyd etmişdir ki, 2014-cü ildən Suraxanı rayonunda yeni ailə quran gənclərin nikah mərasimlərinin Suraxanı rayonu Heydər Əliyev Mərkəzində təşkil olunması bir ənənə şəklini almışdır.

Yeni ailə quran gənclər İlqar Umbayev və Şəlalə Səlimova səhnəyə dəvət edildilər. Rayon Qeydiyyat şöbəsinin əməkdaşı Gülnar Hüseynli gənclərin nikahını rəsmiləşdirdi. Yeni ailə quran gənclərə hədiyyə təqdim olundu və Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov onlara müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyət - Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevlə Zərifə xanım Əliyeva kimi möhkəm təməlli və nümunəvi bir ailə qurmağı, bu müqəddəs ocağı ömürlərinin sonuna kimi qorumağı arzuladı və gənc ailəyə hədiyyə təqdim etdi.

Tədbir musiqili proqramla yekunlaşdı.

**Rauf İLYASOĞLU,**
**"Respublika".**